# 14-cü dərs: Vəftiz

Həmid adlı bu gənc çaşqınlıqdadır. Ötən il o, həyatını İsa Məsihə həsr edib. İndi yeni imanında böyüyür. Bu yaxında başqa bir imanlı ona dedi: «Bu yaxında vəftiz olacaq». Nəticədə, Həmidin bir çox sualı yarandı:




Həmid

Gəlin bu dərsimizdə Həmidin suallarına cavab verməyə çalışaq.

**«Vəftiz nədir?»**

1. «Vəftiz» – suyun içinə salınmaqdır. Əhdi-Cədiddə Vəftizçi Yəhyanın (*Yəhya*) adamları və hətta İsanın Özünü İordan çayında vəftiz etməsi barədə oxuyuruq. Bu gün Məsihin davamçıları dənizdə, çayda, hovuzda və ya vannada bir anlıq tam suyun altına salınaraq vəftiz olunurlar. Bəzən suyu başına tökməklə və ya çiləyərək də vəftiz edirlər.

Bu vacib mərasimdən biz həyatımızda yalnız bir dəfə keçirik. Bu mərasimin adı nədir? ___________

**«Nə üçün vəftiz olunmalıyam?»**

2. Biz vəftiz olunuruq, çünki Rəbb İsa bunu əmr etmişdi. O dedi:

| |
|---|
| «Gedin, bütün millətləri Mənim şagirdim edin; onları Ata, Oğul və Müqəddəs Ruh adı ilə vəftiz edin» (Matta 28:19). |

Bu, vacib ayədir. Xahiş edirik, indi onu əzbərləyin.

3. Məsihin əmrinə itaət edən həvari Peter Yerusəlimdə böyük bir kütləyə dedi: «Tövbə edin, hamınız İsa Məsihin adı ilə vəftiz olun» (Həv.İş. 2:38). Həmin gün üç min adam onun sözünə baxıb vəftiz olundu!

Mən nə üçün vəftiz olunmalıyam? *(yalnız <u>ən yaxşı cavabı</u> qeyd edin)*

___ a) çünki mən bunu etmək istəyirəm

___ b) çünki məsihçi dostlarım bunu istəyirlər

___ c) çünki Rəbb İsa mənə bunu əmr edir

## «Vəftiz nəyi göstərir?»




### *A) Mən Məsihdə yeni şəxs oldum*

4. Bəzi adamlar vəftiz zamanı suyun altına salınmaqdan qorxurlar. Narahat olmayın, vəftiz olunanda adam suyun altına bir anlıq salınır və bu, təhlükəli deyil. Bunun mənası böyükdür və Məsihə gələndə bizimlə baş verənləri göstərir. Sanki köhnə günahlı təbiətimiz suda batır və biz İsada yeni həyat üçün dirilirik!

Xətt çəkib cümlələri məna ilə birləşdirin:

| *Hərəkət* | *Məna* |
|---|---|
| a) Suya salınmaq | 1. Məsihdə yeni şəxs olaraq dirilirəm |
| b) Sudan çıxmaq | 2. Köhnə təbiətim ölür |

5. Beləliklə, vəftiz köhnə həyatımın sonunu və indi Məsihdə yeni şəxs olduğumu göstərir. Allahın Kəlamı deyir:

> «Vəftiz olunub Onun ölümü ilə birləşməklə biz də Onunla birgə dəfn olunduq; belə ki Atanın izzəti ilə Məsih ölülər arasından dirildiyi kimi biz də həmin cür yeni həyat sürək» (Rom. 6:4).

Vəftiz hansı birinci həqiqəti göstərir? *(düzgün cavabı işarələyin)*

[mən Məsihdə yeni şəxs oldum / mən hələ də öz köhnə, günahlı təbiətimdəyəm]

6. Çox vaxt vəftiz olunan adamlar köhnə paltar geyib suyun altına gedirlər. Köhnə paltar köhnə günahlı həyatın rəmzidir. Sonra onlar sudan çıxıb təzə və təmiz paltarlar geyinirlər, bu da Məsihdə onların yeni həyatının rəmzidir.

***Siz artıq vəftiz olunmusunuzsa, sudan çıxanda nə hiss edirdiniz? Müzakirə vaxtı bu barədə danışmağa hazır olun.***

7. Afrikada yaşayan Firuz sizin kimi, əvvəlki dindən çıxıb Məsihi qəbul etdi. Vəftizdən sonrakı hisslərini belə təsvir edir:

> «Köhnə günahlı yolumda öldüyümü hiss etdim, özümü Allaha həsr etdim və indi mən yeni şəxsəm. Dostlarımın tanıdığı, İblisin tanıdığı əvvəlki Firuz deyiləm. Mən yeni Firuzam – bağışlanmışam, yenidən doğulmuşam, Müqəddəs Ruh ilə idarə olunuram. Məsihdə köhnə Firuz öldü, yeni Firuz yaşayır. Sudan çıxanda özümü yeni şəxs hiss etdim!»

Yuxarıdakı şəhadətdə Firuz «yeni» sözündən neçə dəfə istifadə edir? ___ Onların altından xətt çəkin.

8. Vəftiz hansı ən vacib həqiqəti göstərir? Mən Məsihdə _____ şəxs oldum

## B) Günahlarım yuyuldu



9. Həv.İş. 22:16 bizə vəftiz barədə ikinci həqiqəti söyləyir: «Qalx, vəftiz ol və Onun adını çağıraraq günahlarını yu».

Bu ayəyə görə, vəftiz hansı həqiqəti göstərir?

*(birini qeyd edin)*

___ a) mən Məsihdə yeni şəxs oldum

___ b) Günahlarım yuyuldu

10. Təcrübəmizdən bildiyimiz kimi, dəstamaz *və ya* qüsl günahlarımızı yuyub təmizləmir. Su bədənimizi yuyur, ürək və vicdanımızı yaya bilmir.

Vəftiz – Məsihin etdiyi daxili təmizləməni əks etdirən güclü şəhadətdir.

Məsih çarmıxda bunu mümkün etmək üçün öldü. 1Yəhya 1:7-ni oxuyun *(fikir verin ki, 1Yəhya və Yəhyanın Müjdəsi Müqəddəs Kitabda ayrı-ayrı hissələrdir. Mündəricata baxın).*

1Yəhya 1:7-yə görə, bizi bütün günahdan nə təmizləyir? ______________________________

11. Öz həyatında bir çox adamı vəftiz edən həvari Peter vəftiz barədə də yazmışdı: 1Peter 3:18-22. Bu sözləri şərh etmək asan deyil, lakin əsas fikirlər bunlardır:

- İsanın əzabı (ayə 18) və dirilməsi (ayə 21) sayəsində xilasımız mümkün olur.
- Nuhun (ayə 20) nümunəsində olduğu kimi, vəftiz bizə xilas gətirir (ayə 21).

Günahlarımın yuyulmasını hansı mərasim xatırladır?

___ a) vəftiz ___ b) toy ___ c) dəfn

## *C) Mən Məsihin cəmiyyətinin üzvü oldum*



12. Məsihin dünyadakı imanlılar cəmiyyətinə (Məsihin *ümməti*) qoşulduğumuzu vəftiz vasitəsilə hamıya göstəririk. Fərqli irqlərdən olan adamlar olduğumuza baxmayaraq, «Hamımız bir bədən olmaq üçün bir Ruhla vəftiz olunmuşuq və hamımız eyni Ruhdan içirilmişik». (1Korinflilərə 12:13).

Vəftiz hansı üçüncü həqiqəti göstərir?

Mən Məsihin _____________ qoşuldum.

13. Vəftiz təkcə sizə deyil, imanlıların bütün cəmiyyətinə aiddir.
Onlar sizin vəftizinizə şahid olurlar və vəftizdən sonra buna bənzər sözlərlə sizi salamlaya bilərlər:

| |
|---|
| «Biz səni Rəbbin ailəsində salamlayırıq. Hamımız birlikdə Məsihin Bədəninin üzvləriyik; biz eyni Səmavi Atanın övladlarıyıq; biz Allahın Padşahlığının varisləriyik. Səni salamlayırıq». |

➢ ***«Allahın seçilmiş nəsli» belə salamlayanda siz necə də bəxtiyar olursunuz! İndi dayanın və Məsihdəki bacı-qardaşlarınıza görə Allaha minnətdarlığınızı bildirin.***

14. Vəftizə aid üç həqiqət nəyi göstərir? *(boş yeri doldurun)*

    a) Məsihdə mən _________ şəxs oldum

    b) Mənim __________ yuyuldu

    c) Mən Məsihin cəmiyyətinə ___________

Həmid bu həqiqətləri öyrənəndə sevindi. Sonra o sual verir:

## «Vəftiz çox vacibdirmi?»

15. Bir tərəfdən, xilas üçün vəftiz zəruri deyil; çünki biz suya deyil, Məsihə etibar etməklə xilas oluruq. Lakin buna baxmayaraq, vəftiz Məsihin əmridir! Gördüyümüz kimi, Məsihə və Onun cəmiyyətinə aid olmaq üçün vəftiz çox vacib addımdır. Beləliklə, vaxtı gələndə siz vəftiz olunmalısız.

    a) Bir kimsənin barmağındakı nişan üzüyü nəyi göstərir? ___________________________

    b) Üzük nikah üçün zəruri deyil; lakin üzüyü taxan şəxsin kimə sadiq olmasına işarə edir? ______________

    c) Eləcə də, vəftiz olmağımız kimə sadiq olduğumuza işarə edir? _____________

16. Vəftiz vasitəsilə biz müəllimimiz İsa Məsihə sadiq olduğumuzla öyünürük. Vəftiz vasitəsilə biz Məsihdəki bacı-qardaşlarımıza bu barədə sevinclə şəhadət edirik. Ola bilsin, vəftiz zamanı sizdən şəhadət vermək xahiş edəcəklər. Yəni qısaca, Məsihin həyatınızı necə dəyişdiyi barədə hamıya söyləyin.

İndi isə təsəvvür edin, siz vəftiz zamanı şəhadət verirsiz. «İsa Məsih həyatınızı necə dəyişdi?» sualı sizə veriləndə nə deyəcəksiz?

*Şəhadətinizi yazın və müzakirəyə hazır olun. İstəsəniz, 2-ci dərs 15-ci sualda qeyd etdiyiniz cavabı oxuya bilərsiz. Lakin burada daha ətraflı yazın.*

______________________________________________________________________________

______________________________________________________________________________

______________________________________________________________________________

______________________________________________________________________________

17. Səlimənin yaşadığı şərait ona hələ ki, vəftiz olunmağa imkan vermir. Hansı məsləhət onun üçün daha faydalıdır, (a) və ya (b)?

    ___ a) «Bu barədə narahat olma, vəftiz vacib deyil».

    ___ b) «Vəftiz çox vacibdir. Buna görə də Allahdan diləməkdə davam et ki, vaxtı gələndə vəftiz oluna biləsən».



## «Mən nə vaxt vəftiz olunmalıyam?»

18. Bəzi imanlılar Məsihi qəbul edən kimi vəftiz olunmağı məsləhət edirlər. Digərləri imanın böyüməsini və güclənməsini gözləməyi məsləhət edirlər. Onların məsləhətinə qulaq asın, lakin Allahın Ruhunun şəxsən sizə söylədiyini edin. Sizi bu vacib məqama Allah Özü çatdıracaq. Vaxt gələndə ürəyinizdə bunu dəqiq biləcəksiniz.

Hazır deyilsinizsə, adamların sizi vəftiz olunmağa tələsdirməsinə imkan verməyin. Lakin Allah sizi bu addımı atmağa çağırırsa, ləngiməyin.

Aşağıdakı hərəkətlərin hansı yaxşıdır? *(ikisini qeyd edin)*

___ a) qeydinizə qalan müdrik imanlının məsləhətinə qulaq asın

___ b) nəticələrdən qorxub vəftiz olunmayın

___ c) vəftiz olunmağı əhəmiyyətsiz hesab edin

___ d) Allah ürəyinizə qoyanda vəftiz olunun

19. Qeydinizə qalan bir müdrik imanlı sizə vəftiz barədə yaxşı məsləhət verə bilər. Lakin bəzi imanlılar vəftizi yaxşı təşkil etmirlər; bəzən imanlı cəmiyyətlərin rəhbərləri vəftizdən istifadə edərək şöhrət axtarırlar. Beləliklə, etibar edə biləcəyiniz bir imanlını tapın və vəftiz olunmaqda ondan kömək istəyin.

Vəftizə aid sizə yaxşı məsləhət verə biləcək bir kəsi tanıyırsınızsa, burada bir işarə qoyun ☐. Müvafiq bir şəxs yoxdursa, məsləhətçinizlə bu barədə danışın.

20. Biz imanlılar üçün vəftizin mənası barədə danışdıq. Bəs, bizim qeyri-məsihçi qohumlarımız üçün vəftizin mənası nədir? Onlar hesab edirlər ki, vəftiz ilə biz hamının qarşısında onlardan ayrılıb onlara xəcalət və əzab veririk.

Buna görə də biz necə vəftiz olunmalıyıq?

___ a) Qorxu içində, təhlükəsizliyimiz barədə narahat olmalıyıq.

___ b) Ailəmizə olan məhəbbətimizə görə ehtiyat etməliyik.

21. Qeyri-məsihçi qohumlarımıza görə ehtiyatlı və tədbirli olmaq yaxşıdır. Vəftizimiz qohumlara çox xəcalət və əzab gətirməsin deyə, necə tədbirli ola bilərik? *(Fikirlərinizi yazın və müzakirəyə hazır olun)*

______________________________________________

______________________________________________

22. Həyat yoldaşı Məsihin davamçısı olmayan bir şəxsə nə məsləhət verə bilərdiz? İmanlı indi vəftiz olunmalıdır, yoxsa həyat yoldaşı Məsihi qəbul edəndən sonra? *(Fikirlərinizi yazın və müzakirəyə hazır olun)*

______________________________________________

______________________________________________



**14-cü dərs: EV TAPŞIRIĞI**

Hələ vəftiz olunmamısınızsa, 19-cu suala aid yazdığınız adam ilə bu barədə danışın. Nə vaxt və necə vəftiz olunacağınız barədə məsləhətləşin. Bu barədə dua edin və Rəbbin məsləhətini edin.

## 14-cü dərs: İCMAL

1. Ayəni əzbər yazın: «Gedin, ________________________________________
   ____________________________________________________ (Matta ___ : ___).
2. Biz öyrəndik ki, mənim vəftizim üç həqiqəti göstərir. Bunlar nədir?
   a) «Mən _________________________ oldum».
   b) «_____________________________________ ».
   c) «Mən Məsihin _________________________________ oldum».
3. Vəftiz olunmaq nə qədər vacibdir?
   ___ çox vacibdir ___ vacib deyil

## 14-cü dərs: CAVABLAR

1. vəftiz
2. ayəni əzbərləyin
3. c)
4. a) 2. b) 1
5. Məsihdə yeni şəxs
6. şəxsi cavab
7. 4
8. yeni
9. b)
10. İsanın qanı
11. a)
12. cəmiyyətinə
13. Dayanın və Allaha şükür edin
14. a) yeni b) günahlarım c) qoşuldum
15. a) artıq nikahda olmasını
    b) həyat yoldaşına
    c) Məsihə
16. qrupda şəhadət etməyə hazır olun
17. (b) daha yaxşıdır
18. (a) və (d) yaxşıdır
19. məsləhət verə bilən müdrik adamı tanıyırsınızsa, işarə qoyun
20. b)
21. müzakirə üçün
22. müzakirə üçün